# *“ÜÇ ƏSAS VƏ ONLARIN DƏLİLLƏRİ.”*

ŞEYXUL-İSLAM MUHƏMMƏD İBN ABDULVAHHAB

– ALLAH ONA RƏHMƏT ETSİN –

*Arif Allahyarov*

Səfər ayının 21-i 1445-ci il.

***BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM***

Allah sənə mərhəmət etsin! Bil ki, həqiqətən də, bizim üzərimizə öyrənməyimiz vacib olan dörd məsələ vardır.

- **Birinci: Elm öyrənmək.** Bu elm Allahı tanıyıb Onun haqqında öyrənmək, Onun peyğəmbərini – ona Allahın salavatı və salamı olsun – tanıyıb Onun haqqında öyrənmək və İslam dinini dəlilləri ilə birlilkdə bilməkdir.
- **İkinci: Əməl etmək.** Öyrəndiyin elmlə əməl etmək.
- **Üçüncü: Dəvət etmək.** Öyrəndiyin elmlə insanları dəvət etmək.
- **Dördüncü: Səbirli olmaq.** Bu yolda gələn sınaqlara və imtahanlara səbir etmək.

Buna dəlil Uca Allahın bu kəlamıdır: ***"Mərhəmətli və Rəhimli Allahın adı ilə!And olsun axşamçağına. Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı tövsiyə edənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa."*** (Asr surəsi, 1,2,3-cü ayələr)

Böyük İslam alimi İmam Şafi – Allah ona rəhmət etsin – demişdir: *"Əgər Uca Allah insanlara bu surədən başqa bir surəni dəlil olaraq nazil etməsəydi bu surə onlara kifayət edərdi."*

Böyük İslam alimi İmam Buxari – Allah ona rəhmət etsin – demişdir: *"Elm öyrənmək söz danışmaq və əməl etməkdən əvvəl gəlir."* Bu deyilənə dəlil Uca Allahın bu ayəsidir: ***"Bil ki, Allahdan başqa ibadətə haqqı çatan məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların günahlarının bağışlanmasını Allahdan istə."*** (Muhəmməd surəsi, 19-cu ayə)

Allah sənə mərhəmət etsin! Bil ki, həqiqətən də, hər bir müsəlman kişi və qadının üzərinə bu üç mövzunu öyrənib və onunla əməl etməsi vacibdir:

Birinci mövzu: Həqiqətən də, Uca Allah bizləri yaratmış, bizə ruzi vermiş və bizi başlı-başımıza buraxmamışdır. Əksinə, bizə rəsul (elçi) göndərmişdir. Kim o rəsula itaət edib tabe olarsa, cənnətə daxil olar. Kim də ona itaət etməyib tabe olmazsa, cəhənnəmə daxil olar. Uca Allah deyir: ***"Həqiqətən, Biz Firona elçi göndərdiyimiz kimi sizə də şahidlik edəcək edəcək elçi göndərdik. Firon elçiyə asi oldu. Biz də onu şiddətli bir əzabla yaxaladıq."*** (Müzzəmmil surəsi, 15-cı ayələr)

İkinci mövzu: Allah Təala ibadətdə kiminsə və ya nəyinsə ona şərik qoşulmasına qətiyyən razı olmaz. Nə Ona yaxın olan bir mələk, nə də göndərilmiş bir elçi olsa belə razı olmaz. Uca Allah deyir: ***“Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!”*** (əl-Cin surəsi, 18-ci ayə)

Üçüncü mövzu: Allahı ibadətdə təkləşdirib rəsula tabe olan şəxsə Allah və Onun rəsulu ilə - ona Allahın salavatı və salamı olsun - düşmənçilik edənlərlə dostluq etməsi - ən yaxın qohumu olsa belə - icazəli deyil. Uca Allah deyir: ***“Allaha və axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Rəsuluna düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrabaları olsa belə - dostluq etsinlər. Allah onların qəlbinə iman yerləşdirmiş və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları və qəsrləri altından altından çaylar axan cənnətlərə daxil edəcək. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidir. Şübhəsiz ki, məhz Allahın firqəsi nicat tapanlardır.”*** (Mucədələ surəsi, 22-ci ayə)

Uca Allah səni Özünə itaət və ibadət etməyə yönləndirsin! Bil ki, Həniflik dini - İbrahim peyğəmbərin (aleyhissələm) dini – ibadətləri yalnız Allaha məxsus edərək yalnız Ona ibadət etməkdir. Uca Allah bütün insanlara məhz bunu (yalnız Ona ibadət etməyi) əmr etmiş və onları məhz buna görə yaratmışdır. Uca Allah buyurur: ***“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım”*** (əz-Zariyat surəsi, 56-cı ayə).

*“Mənə İbadət etmək üçün yaratdım”* kəliməsinin izahı, mənası yəni: *“Məni ibadətdə təkləşdirmək üçün yaratdım”* - deməkdir.

Uca Allahın əmr etdiyi ən əzəmətli və ən böyük əmri Tövhiddir. Tövhid: “Uca Allahı ibadətdə təkləşdirmək” - deməkdir.

Uca Allahın qadağan edib çəkindirdiyi ən böyük qadağası isə Şirkdir. Şirk: “Allahla yanaşı kiməsə və ya nəyəsə dua etmək, ibadət etmək” - deməkdir. Allahın haqqı olan ibadəti, duanı Allahdan başqasına yönləndirməkdir.

Buna sübut olaraq Uca Allah deyir: ***“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!”*** (Nisa surəsi, 36-cı ayə)

Əgər kimsə səndən – “İnsana bilməsi (öyrənməsi) vacib olan üç əsas hansılardır?” – deyə soruşsa sən ona cavab olaraq de: *“Qulun Rəbbi olan Allahı tanıması, dini olan İslam dinini dəlilləri ilə birlikdə öyrənməsi və Peyğəmbəri Muhəmmədi – ona Allahın salavatı və salamı olsun - tanıması.”*

## ***BİRİNCİ ƏSAS – MƏNİM RƏBBİM[1] ALLAHDIR.***

Əgər kimsə sənə: "Sənin Rəbbin kimdir?" desə, sən ona de: "Mənim Rəbbim məni və bütün aləmləri[2] öz nemətləri ilə idarə edən Allahdır. O mənim ibadətə haqqı çatan yeganə Məbudumdur və mənim ondan savayı məbudum yoxdur." Uca Allah deyir: ***"Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur."*** (Fatihə surəsi, 2-ci ayə) Allahdan savayı hər şey aləmdir və bu aləmlərdən biri də mənəm.

Əgər kimsə sənə: "Sən Rəbbini necə tanıyırsan?" - desə, sən ona de: "Mən Rəbbimi onun ayələri (nişanələri) və məxluqları (yaratdıqları) ilə tanıyıram."

Allahın ayələrindən (nişanələrindən) gecə və gündüzü, Günəşi və Ayı misal çəkmək olar. Allahın məxluqlarına (yaratdıqlarına) yeddi təbəqə səmanı və onların içərisində olanları, yeddi təbəqə yerləri və onların içərisində olanları və o ikisinin arasında olanları misal çəkmək olar.

Uca Allah deyir: ***"Gecə və gündüz, günəş və ay onun dəlillərindəndir. Əgər siz ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin."*** (Fussilət surəsi, 37-ci ayə)

Uca Allah deyir: ***"Doğrudan da, sizin Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da ərşin üzərinə Ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları öz əmrinə tabe edən də odur. Əslində, yaratmaq da, əmr etmək də ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah ən əzəmətli, xeyiri və bərəkəti bol olandır."*** (Əraf surəsi, 54-cü ayə)

"Rəbb məbuddur (yəni ibadət olunandır)." Buna dəlil olaraq Uca Allah deyir: ***"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, təqva sahibi olasınız. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün növbənöv məhsullardan ruzi yetişdirdi. Siz də bunu bildiyiniz halda heç kəsi Allaha tay tutmayın."*** (əl-Bəqərə surəsi, 21, 22-ci ayələr)

Böyük İslam alimi, təfsirçi ibn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Bütün bu şeyləri yaradan ibadətə layiq olandır, ibadətə haqqı çatandır."

Uca Allahın yerinə yetirilməsini əmr etdiyi ibadətlərin bəziləri bunlardır: İslam, iman, ehsan. O cümlədən, dua etmək, qorxmaq, ümid bəsləmək, təvəkkül etmək, rəğbət bəsləmək,

---

[1] Rəbb yaradan, ruzi verən, öldürən, diriləldən, ucaldan, alçaldan, hökümranlıq edən və işləri idarə edib sahmana salan deməkdir.

[2] Aləmlər yəni mələklər, insanlar, cinlər, heyvanlar, bitkilər, həşəratlar, gözlə görülə bilən və gözlə görülə bilməyən hər bir şey.

çəkinmək, xuşulu olmaq, qorxu, üz tutmaq, köməklik istəmək, sığınmaq, yardım gözləmək, qurban kəsmək, nəzir boyun almaq və digərləri. Həm bu ibadətlər, həm də digərləri yalnız Allah üçün edilir. Uca Allah deyir: ***“Şübhəsiz ki, məscidlər Allahındır. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!”*** (əl-Cin surəsi, 18-ci ayə)

Kim bu ibadətlərdən hər hansı birini Allahdan qeyrisinə edərsə, o şəxs artıq müşrikdir, kafirdir. Uca Allah deyir: ***“Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir məbuda ibadət edərsə, onun cəzasını Rəbbi özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar.”*** (Muminun surəsi, 117-ci ayə)

- **Dua etmək.**

Hədisdə gəlir ki, ***“Dua ibadətin beynidir***.” Başqa bir hədisdə isə gəlir ki, ***“Dua özü ibadətdir.”*** Buna sübut olaraq Uca Allah deyir: ***“Rəbbiniz buyurdu: “Mənə dua edin mən də sizə cavab verim. Həqiqətən, mənə ibadət etməyə təkəbbür göstərənlər cəhənnəmə zəlil olaraq girəcəklər.”*** (Ğafir surəsi, 60-cı ayə)

- **Qorxmaq.**

Uca Allah deyir: ***“...möminsinizsə, onlardan qorxmayın, məndən qorxun.”*** (ali-İmran surəsi, 175-ci ayə)

- **Ümid bəsləmək.**

Uca Allah deyir: ***“Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın.”*** (əl-Kəhf surəsi, 110-cu ayə)

- **Təvəkkül etmək.**

Uca Allah deyir: ***“... əgər mömünsinizsə, Allaha təvəkkül edin.”*** (əl-Maidə surəsi, 23-cü ayə)

- **Rəğbət bəsləmək, çəkinmək və xuşulu olmaq.**

Uca Allah deyir: ***“... həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə bizə yalvarardılar. Onlar bizə müti (itaətkar) qul idilər.”*** (Ənbiya surəsi, 90-cı ayə)

- **Qorxmaq.**

Uca Allah deyir: ***“...onlardan qorxmayın, məndən qorxun.”*** (əl-Bəqara surəsi, 150-ci ayə)

- **Üz tutmaq.**

Uca Allah deyir: ***“...Rəbbinizə üz tutun və ona təslim olun.”*** (Zumər surəsi, 54-cü ayə)

- **Köməklik istəmək**.

Uca Allah deyir: ***“Biz yalnız Sənə ibadət edir və yalnız səndən köməklik istəyirik.”*** (Fatihə surəsi, 5-ci ayə) Hədisdə gəlir: ***"Köməklik istədikdə Allahdan köməklik istə."***

- **Sığınmaq.**

Uca Allah deyir: ***“De: “Sığınıram sübhün Rəbbinə!”*** (Fələq surəsi, 1-ci ayə) Uca Allah deyir: ***“De: “Sığınıram insanların Rəbbinə!”*** (Nas surəsi, 1-ci ayə)

- **Yardım gözləmək.**

Uca Allah deyir: ***“O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: “Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm”, – deyə duanızı qəbul etmişdi.”*** (ənfal surəsi, 9-cu ayə)

- **Qurban kəsmək.**

Uca Allah deyir: ***"De: “Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm.”*** (Ənam surəsi, 162-163-cü ayə) Hədisdə gəlir: ***"Allahdan başqasına (qurban) kəsənə Allah lənət etsin."***

- **Nəzir boyun almaq.**

Uca Allah deyir: ***“Onlar vəd etdikləri nəziri verər və dəhşəti hər yeri sarsıdacaq gündən qorxarlar.***” (İnsan surəsi, 7-ci ayə) Hədisdə gəlir: ***"Kim Allaha itaət olacaq bir əməli etməyi nəzir edibsə, qoy ona itaət etsin. Kim də Allaha asi olacaq bir əməli etməyə nəzir edibsə, onda ona asi olmasın."***

## ***İKİNCİ ƏSAS – İSLAM DİNİNİ DƏLİLLƏRİ İLƏ BİRLİKDƏ BİLMƏK.***

"İslam, tövhid ilə Allaha təslim olmaq, itaət və ibadət ilə Ona boyun əymək, şirkdən və şirk əhlindən uzaq olmaq deməkdir."

İslamın üç mərtəbəsi vardır:

1. İslam,
2. İman,
3. Ehsan.

Hər mərtəbənin özünün rükunları və əsasları vardır. İslam dininin əsası beş dənədir:

1. Allahdan başqa ibadətə haqqı çatan məbudun olmamasına və Muhəmmədin Allahın Rəsulu olmasına şahidlik etmək,
2. Namaz qılmaq,
3. Zəkat verməkgetline,
4. Ramazan ayında oruc tutmaq,
5. Həcc etmək.

- "**LƏƏ İLƏHƏ İLLƏLLAH**" **-** şəhadət kəliməsinin dəlili.

Uca Allah deyir: ***"Allah ədalətli olaraq şahidlik etmişdir ki, Özündən başqa ibadətə layiq olan məbud yoxdur. Mələklər və elm sahibləri də, buna şahidlik etmişlər. Ondan başqa***

***ibadətə layiq olan məbud yoxdur, qüdrətlidir, hikmət sahibidir."*** (Ali-İmran surəsi, 18-ci ayə)
Mənası: "Allahdan başqa ibadətə haqqı çatan məbud yoxdur" - deməkdir.
**"LƏƏ İLƏHƏ İLLƏLLAH"** - şəhadət kəliməsinin rükunları.
**«LƏƏ İLƏHƏ»** – Allahdan başqa bütün ibadət olunanları inkar etmək, rədd etmək deməkdir.
**«İLLƏLLAH»** – İbadətə haqqı çatan yeganə məbudun Tək olan Allah olmasını isbat edib doğrulamaq. Uca Allahın öz mülkündə şəriki olmadığı kimi ibadətdə də heç bir şəriki yoxdur.
**"LƏƏ İLƏHƏ İLLƏLLAH"** - kəlməsinin rükunlarının açıqlaması.

Uca Allah deyir: ***"Bir zaman İbrahim öz atasına və qövmünə demişdi: "Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni yaradandan başqa! Şübhəsiz ki, O, məni doğru yola yönəldəcək."*** (Zuxruf surəsi, 26-27-ci ayələr) Uca Allah deyir: ***"De: "Ey kitab əhli! bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək." Əgər onlar yenə üz çevirsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"*** (Ali-İmran surəsi, 64-cü ayə)

- **"MUHƏMMƏDUN RASULULLAH"** - şəhadət kəliməsinin dəlili.

Uca Allah deyir: ***"Sizə özünüzdən elə bir elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir."*** (Tövbə surəsi, 128-ci ayə)

**- "MUHƏMMƏDUN RASULULLAH"** - şəhadət kəliməsinin mənası.

1. Əmr etdiyi xüsuslarda ona itaət etmək;
2. Verdiyi xəbərləri təsdiqləmək;
3. Qadağan etdiyi şeylərdən çəkinmək;
4. Allaha yalnız Onun gətirdiyi şəriətə uyğun ibadət etmək, Allaha yalnız Onun buyurduğu kimi ibadət etmək.

**- Namaz qılmağı, zəkat verməyin və Tövhidin açıqlamasının dəlili.**

Uca Allah deyir: ***"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, hənifələr kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"*** (Bəyyinə surəsi, 5-ci ayə)

- **Oruc tutmağın dəlili.**

Uca Allah deyir: ***"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə Allahdan qorxasınız."*** (əl-Bəqara surəsi, 183-cü ayə)

- **Həcc etməyin dəlili**

Uca Allah deyir: ***"Yoluna gücü çatan hər kəsin müqəddəs evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır. Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur."*** (Ali-İmran surəsi, 97-ci ayə)

## İSLAM DİNİNİN İKİNCİ MƏRTƏBƏSİ İMAN.

İmanın yetmiş və bəzi şöbələri vardır. Ən uca şöbəsi "LƏƏ İLƏHƏ İLLƏLLAH" kəliməsidir. Ən aşağı şöbəsi isə insanlara əziyyət verən bir şeyi götürüb yoldan kənara qoymaqdır. Həya da imandan bir şöbədir.

İmanın altı əsası vardır.

1. Allaha iman gətirmək,
2. Onun mələklərinə iman gətirmək,
3. Onun kitablarına iman gətirmə,
4. Onun peyğəmbərlərinə iman gətirmək,
5. Axirət gününə iman gətirmək,
6. Qədərin xeyrinə və şərrinə iman gətirmək.

- **İmanın altı əsasının dəlili.**

Uca Allah deyir: ***"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, axirət gününə, mələklərə, hər bir səmavi kitaba və peyğəmbərlərə iman gətirən ... şəxslərdir."*** ( əl-Bəqara surəsi, 177-ci ayə). Uca Allah deyir: ***"Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq."*** (Qamər surəsi, 49-cu ayə)

## İSLAM DİNİNİN ÜÇÜNCÜ MƏRTƏBƏSİ EHSAN.

Ehsan, Allaha sanki Onu görürmüş kimi ibadət etməyindir. Sən Onu görməsən də, həqiqətən də, O səni görür. Ehsanın bir rükunu vardır.

Uca Allah deyir: ***"Həqiqətən də, Allah ondan qorxanlar və yaxşı işlər görənlərlədir."*** (Nəhl surəsi, 128-ci ayə) Uca Allah deyir: ***"Qüdrətli və rəhmli olan Allaha təvəkkül et! O səni namaza duranda da görür, səcdə edənlər içində hərəkət edəndə də."*** (Şuara surəsi, 217, 218 və 219-cu ayə) Uca Allah deyir: ***"Sən hansı bir işdə olsan, qurandan nə oxusan, siz nə iş görsəniz, onları etdiyin zaman biz sizə şahid olarıq."*** (Yunus surəsi, 61-ci ayə)

Sünnədən dəlil: İslamın, imanın və ehsanın sünnədən dəlili isə böyük səhabə Ömər ibn əl-Xattabdan (Allah ondan razı olsun) rəvayət olunan məşhur Cəbrayıl hədisidir. Ömər ibn əl-Xattabdan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə deyir: *"Bir gün biz Allahh Rəsulunun yanında oturarkən bizim yanımıza palttarının rəngi olduqca ağ, saçının rəni olduqca qara, üzərində səfərilik əlaməti görünməyən və bizdən də heç kimin tanımadığı bir*

*şəxs daxil oldu. (Həmin şəxs) gəllib Allah Rəsulunun düz qabağında əyləşdi, dizlərini Allah Rəsulunun dizlərinə söykədi, əllərini də öz dizlərinin üzərinə qoyub dedi:*

📋 *"Ey Muhəmməd! Mənə İslam haqqında məlumat ver."*

🔘 Peyğəmbər - ona Allahın salavatı və salamı olsun - dedi: **İslam**:

1️⃣ **Allahdan başqa ibadəyə layiq haqq məbudun olmadığına və Muhəmmədin Allahın Rəsulu olduğuna şahidlik etmək.**

2️⃣ **Namaz qılmaq.**

3️⃣ **Zəkat vermək.**

4️⃣ **Ramazan ayında oruc tutmaq.**

5️⃣ **Həcc etmək – deməkdir.**

📋 Adam: "Doğru söylədin" - dedi.

➖ Ömər - Allah ondan razı olsun - dedi: "Biz ona təəccüb etdik. Həm ona (peyğəmbərə) sual verir, həm də onun (peyğəmbərin) verdiyi cavabı doğrulayır."

📋 Adam dedi: *"Mənə iman haqqında məlumat ver."*

🔘 Peyğəmbər - ona Allahın salavatı və salamı olsun - dedi: **İman**:

1️⃣ **Allaha iman gətirmək;**

2️⃣ **Onun mələklərinə iman gətirmək;**

3️⃣ **Onun kitablarına iman gətirmək;**

4️⃣ **Onun peyğəmbərlərinə iman gətirmək;**

5️⃣ **Axirət gününə (Qiyamət gününə) iman gətirmək;**

6️⃣ **Qədərin xeyrinə və şərrinə iman gətirmək – deməkdir.**

📋 Adam: *"Doğru söylədin"* - dedi.

📋 Adam dedi: *"Mənə Ehsan haqqında məlumat ver."*

◉ Peyğəmbər - ona Allahın salavatı və salamı olsun - dedi: **Ehsan Allaha sanki Onun görürmüş kimi ibadət etməyindir. Sən Onu görməsən də, şübhəsiz ki O, səni görür.**

📋 Adam dedi: *"Mənə Qiyamət günü haqqında xəbər ver."*

◉ Peyğəmbər - ona Allahın salavatı və salamı olsun - dedi:

**Qiyamət günü haqqında soruşulan (Mən) soruşandan (Səndən) çox bilmir.**

📋 Adam dedi: *"Onda mənə Qiyamətin əlamətləri haqqında xəbər ver."*

◉ Peyğəmbər - ona Allahın salavatı və salamı olsun - dedi:

**Kölə qadının ona ağalıq edəcək qız uşağını dünyaya gətirməsi, ayaqyalın, kasıb, qoyun otaranların görkəmli (hündür) binalar tikməkdə bir-biri ilə yarışması.**

— Ömər dedi: “Sonra o adam çıxıb getdi və mən bir müddət olduğum yerdə dayandım.”

◉ Peyğəmbər - ona Allahın salavatı və salamı olsun – mənə dedi: **Ey Ömər, sən sual verənin kim olduğunu bilirsənmi?**

— Ömər dedi: "Mən - Allah və Rəsulu daha yaxşı bilir" - dedim.

◉ Peyğəmbər - ona Allahın salavatı və salamı olsun - dedi:

**Həqiqətən də, o sual verən Cəbrayıl idi. Sizə dininizi öyrətmək üçün gəlmişdi.**

## *ÜÇÜNCÜ ƏSAS – PEYĞƏMBƏRİMİZ MUHƏMMƏDİ – ona Allahın salavatı olsun – TANIMAQ.*

Muhəmməd peyğəmbər - ona Allahın salavatı və salamı olsun - atasının adı Abdullah, babasının adı AbdulMuttəlib ulu babasının adı isə Haşim olmuşdur. Haşim Qureyş qəbiləsindən, Qureyş qəbiləsi ərəblərdən olmuşdur. Ərəblər İbrahim peyğəmbərin oğlu İsmayıl peyğəmbərin nəslindəndir.

Muhəmməd peyğəmbər - ona Allahın salavatı və salamı olsun - 63 il yaşamışdır. 40 il peyğəmbərlik verilməmişdən qabaq yaşamış, 23 il isə peyğəmbər və rəsul olaraq yaşamışdır.

Muhəmməd peyğəmbər - ona Allahın salavatı və salamı olsun - "fil hadisəsi" olan ili Məkkə şəhərində dünyaya gəlmişdir.

O - ona Allahın salavatı və salamı olsun - "Aləq" surəsinin ilk beş ayəsinin nazil olması ilə peyğəmbər, "Muddəssir" surəsinin nazil olması ilə isə elçi elan olunmuşdur.

Uca Allah Muhəmməd peyğəmbəri - ona Allahın salavatı və salamı olsun - insanları şirkdən çəkindirmək və onları Tövhidə - Tək olan Allaha ibadət etməyə - dəvət etmək üçün elçi olaraq göndərmişdir. Uca Allah deyir: ***«Ey libasına örtünmüş peyğəmbər! Qalx və insanları xəbərdar et! Təkcə Rəbbini uca tut! Geyimini təmiz saxla! Pis şeyləri tərk et! Yaxşılığı təmənna məqsədilə etmə! Rəbbin üçün səbir et!»*** (Muddəssir surəsi, 1-7-ci ayələr)

***"Qalx və insanları xəbərdar et"***, yəni onları şirkdən çəkindirib tövhidə - Tək olan Allaha ibadət etməyə - dəvət et. ***"Təkcə Rəbbini uca tut"***, yəni onu tövhidlə əzəmətləşdirib uca tut. ***"Geyimini təmiz saxla"***, yəni əməllərini şirkdən təmizlə. ***"Pis şeyləri tərk et"***, pis şeylər yəni bütlər. ***"Tərk etmək"*** isə onlardan uzaq durmaq deməkdir. Bütləri və bütlərə ibadət edənləri tərk edib onlardan uzaq olmaq deməkdir.

Allah Rəsulu - ona Allahın salavatı və salamı olsun - on il insanları Tövhidə - Tək olan Allaha ibadət etməyə - dəvət etdi.

On ildən sonra isə səmaya qaldırıldı (merac etdi) və orada ona beş vaxt namaz qılmaq fərz edildi. Meracdan qayıtdıqdan sonra üç il Məkkədə namaz qıldı və sonra Mədinə şəhərinə hicrət etməklə əmr olundu.

Hicrət etmək "şirk diyarını tərk edib İslam diyarına köçmək" - deməkdir. Hicrət etmək - "şirk diyarını tərk edib İslam diyarına köçmək" - bu ümmətin üzərinə fərzdir. Bu fərzlik qiyamət gününə qədər qalmaqdadır. Uca Allah deyir: ***"Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara: "Siz nə halda idiniz?"– deyəcəklər. Onlar: "Biz yer üzündə zəif insanlar idik!"– deyə cavab verəcəklər. Mələklər də onlara: "Məgər Allahın yeri o qədər geniş deyildimi ki, siz də orada hicrət edərdiniz?"– deyəcəklər. Onların gedəcəkləri yer cəhənnəmdir. Ora nə pis dönüş yeridir. Yalnız zülmə qarşı çarə qılmağa qadir olmayan və yol tapa bilməyən zəif kişilər, qadınlar və uşaqlar istisnadır. Umulur ki, Allah onları əfv etsin. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır."*** (Nisa surəsi, 97, 98, 99-cu ayələr) Uca Allah deyir: ***"Ey mömin qullarım! şübhəsiz ki, mənim bu yerim genişdir. Elə isə yalnız mənə ibadət edin."*** (Ənkəbut surəsi, 56-cı ayə)

Böyük təfsir alimi İmam Bəğavi - Allah ona rəhmət etsin - demişdir: "Bu ayə Məkkədə qalıb hicrət etməyən müsəlmanlar haqqındadır. Uca Allah onlara "iman əhli" deyə müraciət etdi."

Hicrət etməyin fərz olmasının sünnədən dəlili: Allah Rəsulu - ona Allahın salavatı və salamı olsun - demişdir: *"Tövbə qapısı açıq olana qədər hicrət etmək də vardır. Tövbə qapısı günəş batdığı yerdən çıxan zaman bağlanır."*

Allah Rəsulu - ona Allahın salavatı və salamı olsun - Mədinə şəhərində məskən salıb yerləşdikdən sonra İslamın digər şəri hökmləri ilə əmr olundu. Məsələn: Zəkat vermək, Oruc tutmaq, Həcc etmək, Azan vermək, Cihad etmək, Yaxşılığı tövsiyə edib pis işlərdən çəkindirmək. On il buna dəvət etdi. Allah Rəsulu - ona Allahın salavatı və salamı olsun - vəfat etdi, dini isə qalmaqdadır. Bu onun dinidir. Elə bir xeyir olmadı ki, ümmətini ona dəvət etmiş olmasın və elə bir şər olmadı ki, ümmətini ondan çəkindirmiş olmasın.

Dəvət etmiş olduğu xeyir Tövhid və Allahın sevib razı qaldığı bütün söz və əməllərdir. Çəkindirmiş olduğu şər isə şirk və Allahın bəyənməyib qəbul etmədiyi bütün söz və əməllərdir.

Allah Təala onu bütün insanlara elçi olaraq göndərdi və ona itaət etməyi iki mükəlləf toplumun - bütün cinlərin və insanların - üzərinə fərz etdi. Uca Allah deyir: "***De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm."*** (Əraf surəsi, 158-ci ayə)

Allah Təala onu gəlişi ilə dini kamil edib tamamladı. Uca Allah deyir: ***"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyəndim."*** (Maidə surəsi, 3-cü ayə)

Onun vəfat etməsinin dəlili Uca Allah deyir: ***"Sözsüz ki, sən də öləcəksən, onlar da öləcəklər! Sonra siz qiyamət günü Rəbbinizin hüzurunda mübahisə edəcəksiniz."*** (Zumər surəsi, 30-31-ci ayələr)

İnsanlar öldükdən sonra təkrar dirildiləcəklər. Uca Allah deyir: ***"Biz sizi torpaqdan yaratdıq. Sizi ora qaytaracaq və bir daha oradan çıxardacağıq."*** (Taha surəsi, 55-ci ayə) Uca Allah deyir: ***"Allah sizi torpaqdan bir bitki kimi bitirmişdir. Sonra o sizi ora qaytaracaq və yenidən çıxardacaq."*** (Nuh surəsi, 17-18-ci ayələr)

İnsanlar dirildikdən sonra haqq-hesab olunacaqlar. Etmiş olduqları əməllərinin müqabilində ya mükafatlandırılacaqlar, ya da cəzalandırılacaqlar. Uca Allah deyir: ***"Bu, Allahın pislik edənlərə əməllərinin cəzasını verməsi, yaxşılıq edənləri isə ən gözəli ilə (cənnətlə) mükafatlandırması üçündür."*** (Nəcm surəsi, 31-ci ayə)

Öldükdən sonra dirilməni yalan hesab edən şəxs artıq küfr etmişdir. Uca Allah deyir: ***"Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. De: “Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcək. Bu, Allah üçün çox asandır!"*** (Təğabun surəsi, 7-ci ayə)

Allah Təala bütün peyğəmbərləri (cənnətlə) müjdə verən və (cəhənnəmlə) qorxudan olaraq göndərmişdir. Uca Allah deyir: ***"Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir."*** (Nisa surəsi, 165-ci ayə)

Elçilərin birincisi Nuh peyğəmbər - ona Allahın salamı olsun - sonuncusu isə Muhəmməddir - ona Allahın salavatı və salamı olsun -. O, peyğəmbərlərin sonuncusudur. Ondan sonra peyğəmbər olmamışdır. Uca Allah deyir: ***"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir."*** (Əhzab surəsi, 40-cı ayə)

Nuh peyğəmbərin - ona Allahın salamı olsun - elçilərin birincisi olmasının dəlili, Uca Allah deyir: ***"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik."*** (Nisa surəsi, 163-cü ayə).

Uca Allah Nuh peyğəmbərdən - ona Allahın salamı olsun - başlayaraq Muhəmməd peyğəmbərə qədər - ona Allahın salavatı və salamı olsun - bütün ümmətlərə elçi göndərmişdir. O və elçilərin hamısı ümmətlərinə Allah ibadət etməyi əmr etmiş və onlara tağutlara ibadət etməyi qadağan etmişdir. Uca Allah deyir: ***"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun", – deyə peyğəmbər göndərmişik."*** (Nəhl surəsi, 36-cı ayə).

Uca Allah bütün bəndələrinə tağutu rədd etməyi və Allaha iman gətirməyi fərz etmişdir. Böyük islam alimi ibn əl-Qeyyim - Allah ona rəhmət etsin - demişdir: "Tağut, bəndənin ibadətdə, tabeçilikdə və ya itaətdə (şəriətin qoymuş olduğu) həddi aşmasıdır."

Tağutlar çoxdur, əsasları isə beşdir:

1. İblis (Allah ona lənət etsin);
2. Ona ibadət olunmasından razı qalan şəxs;
3. İnsanları özünə ibadət etməyə dəvət edən şəxs;
4. Qeybi bildiyini iddia edən şəxs (kahinlər, sehrbazlar, falçılar);
5. Allahın endirdiyi ilə hökm verməyən şəxs.

Allah təala mübarək kitabında deyir: ***"Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan, ən möhkəm dəstəkdən yapışmış olar. Allah hər şeyi eşidəndir, biləndir."*** (əl-Bəqara surəsi, 256-cı ayə) Ləə iləhə illallahın mənası da elə budur. Allah Rəsulu (ona Allahın salavatı və salamı olsun) demişdir: ***"İşin başı islam, dirəyi namaz, zirvəsi isə Allah yolunda cihad etməkdir."***

*ƏN DOĞRUSUNU ALLAH BİLİR*

*ALLAHA HƏMD OLSUN, TAMAMLANDI*

*ARİF ALLAHYAROV*